# Qərbi azərbaycanlıların qayıdışı həm də azərbaycanlıların həmrəylik məsələsidir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Qərbi Azərbaycana qayıdış əsas istiqamətlərdən biri kimi Azərbaycan gündəmində yer alır, eyni zamanda bu məsələnin beynəlxalq platformalara daşınması da çox aktualdır. Qərbi Azərbaycana qayıdış dövlətin əsas prioritetlərdən biridir. Hesab edirik ki, bu məsələnin beynəlxalq aləmə daşınmasında xaricdəki Azərbaycan diaspor təşkilatları akrtivlik göstərməlidirlər.**



Ekspertlərin təbrincə desək, diasporumuz bu məsələ ətrafında səfərbər olmalıdır. Əlbəttə, diaspor nümayəndələri arasında kifayət sayda Qərbi Azərbaycan əsilli şəxslər də var. Onlar da, digər diaspor nümayəndələrimiz də azərbaycanlıların öz ata-baba ərazilərinə qayıtmaq hüquqlarının tanıdılması, təbliğ olunması üçün ciddi işlər görməlidirlər. Başlıcası isə, bu mövzuda tarixi həqiqətləri ixtisaslaşmış Avropa institutlarına, beynəlxalq qurumlara çatdırmalıdırlar, müxtəlif tədbirlər, humanitar aksiyalar keçirməlidirlər. Bu məsələnin beynəlxalq ictimai rəyə daşınması, bizim haqlı mövqeyimizi beynəlxalq ünvanlara çatdırması onların əsas işlərindən birinə çevrilməlidir. Yeri gəlmişkən, Qərbi Azərbaycan İcmasından dəfələrlə bildirilib ki, bir sıra xarici ölkələrdə icmanın təşkilatları yaradılacaq və onlar Qərbi Azərbaycana qayıdış məsələsinin tanıdılması ilə məşğul olacaqlar.

Ümimiyyətlə, Qərbi Azərbaycana qayıdış məsələsi bizim həmrəylik, birlik məsələmiz olduğu üçün hər kəs buna öz töhfəsini verməlidir. Xüsusən də diaspor təşkilatlarımız bu ümummilli məsələdə mövqeyimizi ən yüksək səviyyədə dəstəkləməli və haqq işimizin müdafiəsinə töhfə verməlidir.

26 yanvar 2023-cü ildə Qərbi Azərbaycan İcması tərəfindən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası qəbul edilib. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası Ermənistandan zorla qovulan, deportasiya edilən azərbaycanlılarının öz dədə-baba torpaqlarına qayıtması üçün irəli sürülən konsepsiyadır.

Son illərdə Qərbi Azərbaycana qayıdış məsələsi beynəlxalq platformalarda - konfranslarda, humanitar və hüquqi dəyərləndirmələrdə bir neçə istiqamətdə yer almağa başlayıb.

Qərbi Azərbaycan İcması 2024-dən bəri bir neçə beynəlxalq konfrans təşkil edib. Bunlardan "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən konfransı qeyd edə bilərik. Bu konfranslarda 50-dən çox ölkədən nümayəndələr, beynəlxalq ictimai-siyasi xadimlər, hüquqşünaslar və diaspor nümayəndələri iştirak edib.

2025-ci ilin mayında Bakıda keçirilən "Qərbi Azərbaycana dönüş" mövzusunda beynəlxalq konfransın yekun sənədində qayıdış hüququnun beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi tanınması vurğulanıb, bu sənəd BMT-yə təqdim edilib və Qərbi Azərbaycandan olan azərbaycanlıların öz doğma yurdlarına təhlükəsiz, ləyaqətli geri dönüşünün təmin edilməsi çağırışı edilib, eyni zamanda Ermənistanın hərəkətsizliyinin pislənilib, bu məsələnin beynəlxalq gündəmdə saxlanması tələb olunub.

2025-ci ilin dekabrında keçirilən "Mədəni irs və qayıdış hüququ" mövzusunda beynəlxalq konfrans zamanı 300 000-dən çox qaçqının geri dönməsi məsələsi gündəmə gətirilib.

Prezident İlham Əliyev "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirib: "Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir".

Prezident Əliyevin fikirləri tamamilə haqlıdır və bu məsələyə aidiyyəti beynəlxalq qurumlar öz töhfəsini verməlidir. Soydaşlarımızın beynəlxalq hüquq çərçivəsində öz yurdlarına qayıtmaq haqları tanınmalıdır.

Qərbi Azərbaycana qayıdış sadəcə daxili məsələ deyil, bu beynəlxalq insan hüquqları kontekstində də dəyərləndirilməlidir.

Məlumatlara görə, "Qərbi Azərbaycana qayıdış" mövzusu diaspor və Türk dünyası çərçivəsində də müzakirə olunur. Məsələn, may 2025-də Qazaxıstanda-"Qərbi Azərbaycana qayıdış çağırışları" adlı forum təşkil edilib. Orada türk dövlətləri arasında, diaspor strukturlarında bu məsələyə fikir verilməsi vurğulanıb.

"Qayıdış hüququ"nun tanınması və ehtiyacların beynəlxalq arenada gündəmə gətirilməsi, bəzən diplomatların, dövlət başçılarının çıxışlarında da yer alır.

Bu baxımdan, Qərbi Azərbaycana qayıdış artıq "əlaqələndirilmiş diaspor + beynəlxalq hüquq + siyasi diplomatiya" üçlüyü kimi formalaşan bir konsepsiyaya çevrilməkdədir.

İştirakçılar arasında çoxsaylı ölkələr olsa da, bu məsələ hələ beynəlxalq səviyyədə-QHT-lər, BMT və ya nüfuzlu tranznasiya institutları tərəfindən geniş mandatla (məsələn, "rəsmən qayıdış proqramı" şəklində) tanınmayıb.

"Qərbi Azərbaycan" kimi terminologiya beynəlxalq ictimai-siyasi və diplomatik dairələrdə geniş şəkildə qəbul olunmalıdır. Bu məsələ beynəlxalq platformalarda birmənalı dəstək qazanmalıdır. Bunun üçün isə, heç şübhəsiz, xaricdəki Azərbaycan diaspor qurumları da bu məsələyə ciddi dəstək verməlidir. Qeyd etdiyimiz kimi, bu, milli həmrəyliyik məsələmizdir və hər kəs bu işdə dəstəyini göstərməlidir ki, biz öz hədəflərimizə çataq - Qərbi azərbaycanlıların hüquqları bərpa olunsun və onlar öz yurdlarına qayıda bilsinlər.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***